

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 121 (23.032)

*3 iyul 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada taxıl biçini aparılır





Muxtar respublikada taxılçılığın inkişafı sahəsində kompleks tədbirlər görülür. Taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə dövlət maliyyə dəstəyinin göstərilməsi, keyfiyyətli toxum sortları və texnikalarla təminatı bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir. Cari ilin məhsulu üçün muxtar respublikada 32 min 483 hektar sahədə taxıl əkilmişdir. Hazırda sahələrdə biçin aparılır.

İyunun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlmiş, taxıl biçininin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, biçin aparılan 405 hektar sahədə yerli iqlim şəraitinə uyğun məhsuldar "Qobustan" toxum sortu əkilmişdir. Biçinə 4 kombayn cəlb olunmuş, mexanizator və kombaynçılar üçün lazımi şərait yaradılmışdır. Ərazidə əkinin şırım üsulu ilə aparılması, qapalı suvarma şəbəkəsinin qurulması, normalara uyğun gübrə verilməsi taxılın vegetasiya dövründə daha yaxşı inkişafına və məhsuldarlığın artmasına səbəb olmuşdur. Bu günə qədər 245 hektarda biçin başa çatdırılmışdır. Məhsuldarlıq 29 sentnerdir.

Muxtar respublikada taxıl biçinində iştirak edən kombayn, maşın və mexanizmlərin davamlı işləməsi təmin edilmiş, zəruri ehtiyat hissələri alınmış, texniki xidmət təşkil olunmuşdur. Həmçinin taxıl zəmilərində yanğın təhlükəsizliyi ilə bağlı maarifləndirmə işləri görülmüşdür. Sahələrdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə briqadaları xidmət aparır.

Ali Məclisin Sədri muxtar respublikamızda taxılın vaxtında və itkisiz toplanılmasının vacibliyini vurğulamış, müvafiq tapşırıq və tövsiyələr vermişdir.

Taxıl biçini ilə tanışlıqdan sonra mexanizator və kombaynçılarla görüşən Ali Məclisin Sədri demişdir: Taxıl biçini müqəddəs və əhəmiyyətli işdir. Bu iş ona görə müqəddəsdir ki, çörəkdir. Əhəmiyyətlidir ona görə ki, muxtar respublikada əsas ərzaq məhsulu istehsal olunur. Bu il muxtar respublikada 30 min hektardan artıq sahədə taxıl əkilib. Taxıl biçini optimal müddətə – iyul ayının sonuna qədər başa çatdırılmalıdır. Bu günə qədər 9 min hektardan artıq taxıl sahəsi biçilib və hazırda biçin mütəşəkkil şəkildə davam etdirilir. Bunun da əsas səbəblərindən biri vaxtilə torpaq mülkiyyətçilərinin kombayn və digər texnikalarla təmin olunmasıdır. Hazırda muxtar respublika üzrə taxıl biçinində 95 kombayn iştirak edir ki, onun da 15-i "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə, 80-i isə sahibkarlara məxsusdur. Həmçinin muxtar respublikaya yüksək iş əmsalına malik yeni kombaynlar da gətirilib. Onlar da bu sahə ilə məşğul olan, işinin öhdəsindən gələn, texnikalardan səmərəli istifadə edən sahibkarlara veriləcəkdir.



Ali Məclisin Sədri demişdir: Taxıl əkini zamanı aqrotexniki qaydalara düzgün əməl olunmalı, əkin şırım üsulu ilə aparılmalı, yerli iqlim şəraitinə uyğun məhsuldar və dərmanlanmış toxumlardan istifadə olunmalıdır. Biçin keçirilən bu ərazidə məhsuldarlıq 29 sentnerdir. Bu, böyük nailiyyətdir. Vaxtilə bu torpaqlardan 20 sentner taxıl götürülürdü. Lakin aqrotexniki qaydalara düzgün əməl olunması, mütərəqqi əkin və suvarma metodlarının tətbiqi, şəraitə uyğun toxum sortlarının seçilməsi, normalar daxilində gübrə verilməsi məhsuldarlığı artırmışdır. Muxtar respublikada hər hektardan 40 sentner taxıl götürən torpaq mülkiyyətçiləri də vardır. Dəmyə üsulu ilə əkinin genişləndirilməsi də taxıl istehsalının artmasına səbəb olmuşdur. Hazırda muxtar respublikada buğda 30 qəpikdən qəbul edilir. Taxıl istehsalının artırılması sahəsində həyata keçirilən tədbirlər tələbatın yerli istehsal hesabına ödənilməsinə və vəsaitin ölkəmizdə qalmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Taxılçılıqda məhsuldarlığı artırmaq əsas şərtdir. Çünki muxtar respublikanın əkinəyararlı torpaqları 62 min hektara yaxındır. Onun da 52 min hektarından çoxu suvarılan ərazilərdir. Ona görə də muxtar respublikada tələbata uyğun taxıl istehsalına əkin sahələrini genişləndirmək yolu ilə deyil, məhsuldarlığı artırmaqla nail olunmalıdır. Çünki əkinəyararlı torpaqlarda taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri də əkilir. Muxtar respublikada qapalı suvarma şəbəkələrinin qurulması nəticəsində suvarılan torpaqların sahəsi ilbəil artır. Hazırda Böyükdüz kəndində 600 hektar sahədə qapalı suvarma şəbəkəsi qurulur. Bu da yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsinə, torpaqlardan səmərəli istifadə olunmasına və bol məhsul istehsalına imkan verəcəkdir.

"Muxtar respublikada bu gün taxıl istehsalının artırılması sahəsində görülən işlər sabah hər bir sakinin süfrəsinin bərəkətinə çevriləcəkdir", – deyən Ali Məclisin Sədri muxtar respublika sakinləri adından taxıl biçinində iştirak edən mexanizator və kombaynçılara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz kəndi ərazisindəki 500 hektar torpaq sahəsinə baxmış, ərazidə layihələndirmə işlərinin aparılması və qapalı suvarma şəbəkəsinin qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Müvafiq kateqoriyadan olan əmək pensiyaçılarının pensiyaları artırılacaq

Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il 25 iyun tarixdə Fərman imzalamışdır. Bu fərman pensiya təminatında artım dinamikasının, ümumən, əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin uğurla davam etdirildiyini təsdiq edir.

Bu qayda 1 iyul 2017-ci il tarixədək əmək pensiyası təyin edilmiş hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin, dövlət qulluqçularının, Mərkəzi Seçki Komissiyası və Hesablama Palatası üzvlərinin, deputat və digər bu kateqoriyalardan olan şəxslərin qulluq stajına görə əmək pensiyasına əlavənin məbləğinin yenidən hesablanmasını müəyyən edir. Həmin əlavələrin hesablanmasının yeni mexanizmə uyğunlaşdırılması və əməkhaqqında, təminat xərclərində və dövlət məvacibində artımlar olduqda onların da pensiyalarının bu müvafiq qaydaya uyğun olaraq artırılması təmin edilir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Fərmanı ilə müəyyən edilmiş yeni qaydaya uyğun olaraq muxtar respublika üzrə müvafiq kateqoriyadan olan şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavələr yenidən hesablanaraq artırılacaq.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən hesablanmış artımlar 2018-ci ilin iyul ayından başlayaraq pensiya ödənişində, müvafiq ayların artımları da daxil olmaqla, əmək pensiyaçılarına ödəniləcək.

Son aylarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi, əmək pensiyasının və müavinətlərin artırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib, vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən əmək pensiyasının sığorta hissəsinin məbləğinin 5,7, müavinətlərin isə 2018-ci il 23 fevral tarixli sərəncamlara əsasən 10 faiz artırılması, habelə 2018-ci il 25 iyun tarixli Fərmanı ilə müvafiq kateqoriyadan olan əmək pensiyaçılarının pensiyasının artırılması dövlətin pensiyaçıların sosial rifah halının yaxşılaşdırılmasına diqqət və qayğısını sübut edir.

Azərbaycan Respublikası Prezidentinin ölkədə sosial rifah halının yaxşılaşdırılmasına, müvafiq kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən fərman və sərəncamların icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən müvafiq işlər gələcəkdə də həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Yeni asfalt zavodunun tikintisi tamamlanmaq üzrədir

20 ildən artıqdır ki, muxtar respublikamızda yolların abadlaşdırılması, müasir standartlara cavab verməsi üçün ardıcıl tədbirlər görülüb və görülməkdədir. Müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodlarının, qum-çınqıl karxanalarının istifadəyə verilməsi muxtar respublikada keyfiyyətli avtomobil yollarının çəkilməsinə imkan yaradır. Babək rayonu ərazisində yeni asfalt zavodunun qurulması da keyfiyyətli asfalt istehsalı və avtomobil yollarının çəkilməsi işini sürətləndirəcək.

Yeni zavodda daha keyfiyyətli asfalt istehsal ediləcək. Zavod Arazqırağı ərazidə inşa olunur. Aprel ayının əvvəlindən tikintisinə başlanılan zavodda ən yeni texniki göstəricilərə malik avadanlıqlar quraşdırılır. Zavoda qaz, elektrik və su xətlərinin çəkilişi başa çatdırılıb. Avadanlıqların quraşdırılması da yekunlaşmaq üzrədir. Bununla yanaşı, müəssisənin ərazisində də abadlıq işləri aparılır. Zavod istifadəyə verildikdən sonra saatda 240 ton yüksəkkeyfiyyətli asfalt istehsal olunacaq. Bu, muxtar respublikada ən böyük asfalt zavodu olacaq. Qeyd edək ki, zavodun yaxın günlərdə fəaliyyətə başlaması planlaşdırılır.

**Xəbərlər şöbəsi**

## Naxçıvan dünən

# Ərzaq təchizatında çətinliklər

Bu ay şəhər sakinləri talon ilə hansı ərzaq məhsullarını alacaqlar? Bu sual ilə müxbirimiz Naxçıvan Şəhər Universal Ticarət Birliyinin direktoruna müraciət etmişdir. O demişdir ki, təchizat məsələsində çətinlik və problemlər olmasına baxmayaraq, biz hər ay imkan daxilində şəhər əhalisini bəzi ərzaq məhsulları ilə təmin edirik. Bakıdan Naxçıvana avtomaşınlar ilə malları daşıyıb gətirmək üçün xeyli nəqliyyat xərcləri çəkməli olsaq da, çalışırıq ki, əhali ərzaq normalarını vaxtında ala bilsin. May ayında şəhər əhalisinə yalnız adambaşına 0,5 kiloqram Türkiyədə istehsal olunmuş yağ verilmişdir. Şəkər tozunu isə bu ay vermək mümkün olmayacaq. Ona görə ki, Bakıda ticarət bazalarında şəkər tozu olmadığına görə alıb gətirə bilmədik. Bakının özündə də əhaliyə ərzaq normaları verilmir. Qaldı ki, gündəlik tələbat malları – sabun, kibrit, yuyucu toz və digər çoxişlənən mallar da Azərbaycan Respublikasının ticarət bazalarında yoxdur. Azərbaycan Respublikasının Ticarət Nazirliyindən bizə bildirdilər ki, ərzaq malları və çoxişlənən mallar alınan kimi muxtar respublikanın normaları veriləcəkdir. Yeri gəlmişkən deyim ki, muxtar respublikanın yerli sənaye müəssisələrindən, ətsüd kombinatından, quşçuluq fabrikindən, şərab zavodlarından yeyinti məhsullarını da ala bilmirik. Bu müəssisələr istehsal etdikləri malları özlərinin firma mağazalarında satırlar. Bu məsələ ilə əlaqədar muxtar respublika Ali Məclisi qarşısında məsələ qaldırmışıq.

Əvvəlki aylardan ehtiyat saxladığımız və Bakıdan az miqdarda aldığımız şəkər tozu, yağ, sabun, yuyucu toz və digər malları şəhərin bağlı müəssisələrinə, uşaq evinə və veteranlar mağazalarına bölmüşük. Şəhər əhalisinə demək istəyirəm ki, Bakıdan ərzaq və çoxişlənən mallar alınan kimi əhaliyə çatdırılacaqdır.

***“Şərq qapısı” qəzeti***
***11 iyul 1994-cü il***

## və bu gün

# Muxtar respublika iqtisadiyyatının inkişafı insan sağlamlığı amili ilə paralel aparılır

***Tarixin müxtəlif dövrlərində ölkəmizə qarşı torpaq iddiaları ilə ərazilərini genişləndirmək fikrində olan nankor qonşularımız 1988-1990-cı illərdə yenidən eyni arzu ilə sərhədlərimizi pozub, məkrli işğal planlarını həyata keçirməyə cəhd etdilər. Həmin planların ölkə üçün ağır nəticələrindən biri də muxtar respublikamızın blokada vəziyyətinə salınması oldu. Artıq 28-ci ilini yaşadığımız blokadanın ilk illərində muxtar respublikamız çox böyük çətinliklərlə qarşılaşdı.***



Yaranmış vəziyyət elektrik enerjisinin, təbii qazın kəsilməsi, istehsal müəssisələrinin fəaliyyətinin dayandırılması, yüzlərlə sakinin öz iş yerlərini itirməsi, insanların qaranlıqda, soyuqda qalması, hər ailədən ən azı 1-2 nəfərin evini tərk edib işləmək üçün qonşu dövlətlərə getmələri ilə nəticələndi. Mərkəzlə əlaqələrin tamamilə kəsilməsi muxtar respublikada ehtiyat qida məhsullarının qıtlaşmasına səbəb oldu. Bu isə insanları ağır həyat tərzi ilə üz-üzə qoydu. Yaşamaq üçün ən önəmli qida məhsulu sayılan çörəyin azlığı, ailənin çörəyə olan birgünlük ehtiyacını ödəmək üçün həmin günün yarıdan çoxunun çörək növbələrində itirilməsi o dövrlərin ən acınacaqlı hallarından biri idi.

Çətin həyat tərzi, təbii ki, insanların sağlamlığına da öz mənfi təsirini göstərirdi. İlk növbədə, psixoloji sarsıntılar, sonra isə soyuq evlərdə yaşamaq, lazımi səviyyədə keyfiyyətli məhsullarla qidalanmamaq əhalinin sağlamlığını təhlükə altına almışdı. Belə bir dövrdə qonşu dövlətlərdən hansı şəraitdə istehsal olunması bilinməyən ərzaq məhsullarının muxtar respublikaya gətirilməsi bu təhlükəni bir qədər də yaxınlaşdırırdı.

Elə məhz həmin illərdə muxtar respublikamızda blokadanın çətinliklərinin hər bir sahəyə mənfi təsir göstərməsinə baxmayaraq, burada iqtisadiyyatın gələcək inkişafı üçün hazırlanmış planlar mərhələli şəkildə həyata keçirilirdi. Muxtar respublika iqtisadiyyatının bütün mərhələlərində inkişafın insan sağlamlığı ilə paralel şəkildə aparılması isə diqqətçəkən məqamlardandır. Bunu bu gündən o dövrə nəzər salarkən aydın şəkildə görmək mümkündür. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli lider Heydər Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. Torpaq islahatının ölkədə birinci muxtar respublikamızda həyata keçirilməsində əsas məqsəd blokada vəziyyətində yaşayan Naxçıvanın iflic olmuş iqtisadiyyatının dirçəldilməsi, eyni zamanda əhalinin sağlamlığında başlıca şərt olan rifah halının yüksəldilməsi idi. Bu islahatlar qonşu dövlətlərə işləməyə gedənlər, işsiz insanlar, kənd çayxanalarında vaxtlarını keçirən hər kəsdə torpağına sahiblik hissi formalaşdırdı, eyni zamanda bu torpaqları əkib-becərərkən işsizlik stresindən, çayxanaların tüstüsündən, qonşu ölkələrdə işləyərkən antisanitariya vəziyyətinin hökm sürdüyü yaşayış şəraitindən kənarlaşmaqla sağlam həyat tərzinin də təməlini qoydu. İstehsal etdikləri keyfiyyətli məhsullarla həm ailələrini təmin etdilər, həm də bazarlarımızda bolluq yaranmasına nail oldular.

Sonrakı illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)”, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, həmçinin “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatının inkişafında müstəsna rol oynayaraq Naxçıvanın davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, məşğulluğun təmin edilməsi üçün geniş imkanlar açdı.

Qəbul olunan proqram, imzalanan fərman və sərəncamların hər biri ilə tanış olarkən bu sənədlərdə muxtar respublika iqtisadiyyatının inkişafı ilə yanaşı, insanların sağlamlığının da başlıca amil kimi götürülməsinin şahidi oluruq. Məsələn, ötən dövr ərzində əhalinin yerli məhsullarla təminatı istiqamətində görülən işlərin ərzaq təhlükəsizliyi baxımından müstəsna əhəmiyyəti vardır. Kənardan gətirilən və mənşəyi məlum olmayan məhsullardan fərqli olaraq yerli məhsulların hansı keyfiyyətə malik olduğu hər kəsə məlumdur. Həmçinin yerli məhsullar idxalın qarşısını almaqla yanaşı, daxili bazarda qiymətlərin sabit qalmasına da xidmət edir. Bu isə məhsul istehsalçıları ilə bərabər, istehlakçıların da marağına uyğundur.

Aparılan iqtisadi təhlillərə görə, əgər 1995-ci ildə xarici ticarət dövriyyəsinin 90 faizi idxalın, cəmi 10 faizi ixracın payına düşürdüsə, ötən illər ərzində bu strukturda köklü dəyişikliklər baş verib, onun 92 faizini ixrac, cəmi 8 faizini idxal təşkil edib. 2017-ci ildə xarici ticarət dövriyyəsinin həcmi 1995-ci ilə nisbətən 24 dəfə artımla müşayiət olunub. Həmçinin 2017-ci ildə muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulunun həcmi 1995-ci ilə nisbətən 12 dəfə artıb. Diyarımızda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı son 22 ildə 11 dəfə artaraq 442-yə çatıb. 1995-ci ildə adambaşına düşən sənaye məhsulunun həcmi 27 manat təşkil edirdisə, 2017-ci ildə bu rəqəm 2140 manatdan çox olub.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 382 növdə məhsul istehsal olunur. Bu məhsulların 126 növü ərzaq, 256 növü qeyri-ərzaq



məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib. Ölkə Prezidenti cənab İlham Əliyev bu göstəriciləri yüksək dəyərləndirərək may ayının 16-da Naxçıvan şəhərində Müəllimlər İnstitutunun açılış mərasimində etdiyi çıxışda demişdir: ***“...Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir”.***

Bütün bu iqtisadi göstəriciləri və onların təhlillərini nəzərdən keçirərkən, diyarımızda ərzaq bolluğunun təmin olunması ilə yanaşı, həm də sakinlərin rifah halının yüksəldilməsinə, onların sağlam həyat tərzi əhatəsində yaşamasına hesablandığının şahidi oluruq. Muxtar respublika iqtisadiyyatının hərtərəfli şaxələndirilməsinin və ümumi inkişafının nəticəsi olaraq 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” tərəfindən müəyyən edilən investisiya reytinqində muxtar respublikamız ölkəmizin regionları arasında 18 parametr üzrə ən yüksək ümumi bal toplayaraq liderlik əldə edib. Bu, blokada Naxçıvanının dünənindən bu gününə kimi ötən dövr ərzində bu sahədə həyata keçirilən işlərin səmərəliliyinin təcəssümüdür.

Bir zamanlar böyük bir problem olan ərzaq təhlükəsizliyi bu gün muxtar respublikamıza tamamilə yaddır. Bu gün Naxçıvanda pərakəndə ticarət obyektlərində satılan məhsullar arasında yerli istehsal məhsulları üstünlük təşkil edir. Həmin məhsullar əhalinin tələbatını tamamilə ödəyir. Həmçinin daxili bazarlarla yanaşı, qonşu ölkələrə də ixrac olunan bu məhsulların alıcılıq qabiliyyəti yüksəkdir. Bu isə təbii ki, Naxçıvanın coğrafi mühiti ilə birbaşa əlaqədardır. İndi ölkə bazarlarında Naxçıvan məhsullarının əl-əl axtarılma səbəbi də, sözsüz ki, onların sağlam ekoloji mühitdə istehsalı ilə birbaşa bağlıdır.

Müasir dövrdə dünyada milyonlarla insanın aclıq şəraitində yaşadığı və bir o qədər də insanın tamamilə keyfiyyətsiz ərzaq məhsulları ilə qidalandığı haqqında məlumatlarla tez-tez rastlaşırıq. Bu gün muxtar respublika sakinləri yaxşı bilirlər ki, 108 adda ərzaq məhsulu tamamilə yerli imkanlar hesabına ödənilir. Bu məhsulların istehsalına uzun illərdən bəri blokada şəraitində yaşayan muxtar respublikamızda çox çətinliklə, pillə-pillə nail olunduğunu da yaxşı bilirlər. Və onu da hər kəs yaxşı bilməli və dəyərləndirməlidir ki, son iyirmi ildən artıq bir dövrdə qədim diyarımızda bütün sahələrin, eləcə də iqtisadiyyatın inkişafında insan sağlamlığı başlıca amil kimi götürülür.

**✍ Mətanət MƏMMƏDOVA**

## İstehsal müəssisələri

# “Naxçıvan Tikiş” Açıq Səhmdar Cəmiyyəti uğurlu fəaliyyətini davam etdirir

***“Naxçıvan Tikiş” Açıq Səhmdar Cəmiyyəti istehsal etdiyi geniş çeşiddə geyimlərlə muxtar respublikada əhalinin müxtəlif idarələrdə çalışanlar üçün nəzərdə tutulan xüsusi geyim formalarına, məktəbli və tələbələr üçün geyim dəstlərinə tələbatlarını ödəyən mühüm yüngül sənaye müəssisələrindəndir.***

“Naxçıvan Tikiş” Açıq Səhmdar Cəmiyyəti istehsal etdiyi digər geyimlərlə bərabər, məktəbli geyim formalarının tikilişi üzrə də muxtar respublikamızda öncül sahibkarlıq obyektlərindən biridir.

40 nəfərə yaxın işçinin çalışdığı müəssisədə olarkən müəssisə rəhbəri Rövşən Abdinov qeyd etdi ki, muxtar respublikamızda özəl sektorun inkişafına göstərilən qayğı onların



da fəaliyyətlərinin günün tələbləri səviyyəsində qurulmasına imkan verib. Belə ki, ötən dövr ərzində fabrik 2 dəfə Sahibkarlığa Kömək Fondu tərəfindən verilən güzəştli kreditlərdən bəhrələnib, burada Rusiya, Almaniya və Çin mənşəli avadanlıqlar quraşdırılıb.

Göstərilən qayğı üçün dövlətimizə minnətdarlıq edən müəssisə rəhbəri bildirdi ki, yeni avadanlıqların köməyi ilə kəsim, tikim və pres işlərinin kompüterlə idarə olunması, eyni zamanda enerjiyə, xammala daha çox qənaət etmək və məhsulun keyfiyyətini yüksəltmək mümkündür. Bu avadanlıqlar vasitəsilə tikilən kostyumlar, tələbələr üçün geyim dəstləri keyfiyyəti ilə seçilir. Fabrikdə çalışan usta və dərzilərdən Sünbül Nəbiyeva, Sona Abbasova və Bədir Fətullayeva bildirdilər ki, müəssisənin imkanlarından istifadə etməklə daha yaraşıqlı, müasir dəbli paltarlar tikirlər.

Yaradılmış şərait fabrikin uğurlu fəaliyyətinə təkan verib. Belə ki, fabrikdə ötən il 360 min manatdan artıq həcmdə daxili bazar yüksəkkeyfiyyətli tikiş məmulatları ilə təmin edilib. Cari ildə də uğurlu fəaliyyət davam etdirilir. Kollektiv öz işini müasir tələblər səviyyəsində qurmaqla onların qarşısında duran vəzifələrin layiqincə yerinə yetirilməsinə çalışır. Bu baxımdan cəmiyyətin sədri Rövşən Abdinovun Azərbaycan Respublikasının iqtisadi inkişafına verdiyi töhfə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 24 may tarixli Sərəncamı ilə “Tərəqqi” medalına layiq görülməsi onların əməyinə verilmiş ən böyük qiymət olub. Müəssisə rəhbəri bundan sonra da muxtar respublikamızın sosial-iqtisadi inkişafı naminə səylə çalışacaqlarını, daha gözəl geyim dəstləri ilə alıcıların zövqünü oxşayacaqlarını bildirdi.

**✍ Əli CABBAROV**

## Günnüt qədim yurd yerimiz, əzəli Azərbaycan torpağıdır

### *Kəndin adının mənşəyi də bunu bir daha sübut edir*

***Düzgün və dəqiq müəyyənləşdirilmiş siyasət hesabına və ordumuzun növbəti uğurlu əməliyyatı nəticəsində Şərur rayonundakı qədim Günnüt yaşayış məskəni və ətraf əraziləri də düşməndən azad olundu. Mən sevincimi "Günnüt" adının izahı ilə ifadə etmək qərarına gəldim. Bu adın mənşəyi haqqında elmi ədəbiyyatlarda xeyli məlumat vardır.***



Bu yaşayış məntəqəsinin keçmiş adı Günnüt Cəfərli olub. Kənd Cəfərli nəsli tərəfindən "Günnüt" adlı yerdə salınıb. Ona görə də bu yaşayış məntəqəsi belə adlandırılıb. "Azərbaycan toponimləri" kitabında "Günnüt" sözü ehtimal şəklində "güney, gün çox düşən yer" kimi mənalandırılır. Alimlərdən akademik Budaq Budaqov və professor Qiyasəddin Qeybullayev bu adın mənasının məlum olmadığını, lakin adın türk dillərində "günet" sözündən yaranıb "dağın gün düşən tərəfi" mənasını verdiyini ehtimal edirlər. Həmin alimlər "Naxçıvan diyarının yer yaddaşı" kitabında isə fərqli mövqedən çıxış edirlər: "Şərur rayonundakı "Günnüt" kənd adı qədim türk mənşəli Hun (Xun) etnonimindən və qədim türk dillərində cəm bildirən şəkilçidən ibarətdir. Xunut dağının adı ilə mənşəcə eynidir. Bu toponim "günəşli yer, güney" mənasını da verir".

Həmin mənbədə daha sonra bunlar qeyd olunub: Xunut Şərur rayonunda Günnüt kəndinin şimalında dağdır. Eramızın əvvəllərində Şimaldan gəlib məskunlaşmış hun etnonimi ilə bağlıdır. Qədim hun etnoniminin əsl forması məhz Xun olmuşdur. Dağın adı Xun etnonimindən və qədim türk dillərində cəm bildirən *-ut* şəkilçisindən ibarətdir. Həmin dağın adı təhrif olunmuş şəkildə Günnüt kəndinin adında əksini tapıb.

Qiyasəddin Qeybullayev vaxtilə yazdığı bir məqalədə bu adın qədim türk dillərində "çəmən, düzən" mənasında olduğunu qeyd edib.

Əziz Novruzlu və Vəli Baxşəliyev isə həmin fikrə əsaslanaraq "Şərurun arxeoloji abidələri" kitabında yazırlar: – "Günnüt kəndi qədim türk dillərində çəmən, düzən deməkdir. Sonuncu Şərur ərazisində olan kəndin coğrafi mövqeyi və relyefi ilə düz gəlməsə də, çəmənlik sözü uyğun gəlir. Sözü dil baxımından izah etsək, onu "gün vuran yer" kimi mənalandırmaq olar. Ola bilsin ki, kəndin coğrafi ərazisinə vaxtilə günnük (gün vuran yer, güney) deyilmişdir. Görünür, sonralar sözün sonunda olan "k" səsi zaman keçdikcə "t" səsi ilə əvəz edilmişdir".

Bildirək ki, Azərbaycanda "Günnüt" adına fonetik cəhətdən yaxın olan Küngüt dağı, Aşağı Küngüt kəndi, kəndin yaxınlığında yerləşən dağın ərazisində Küngüt təpəsi, Küngüt dərəsi, Küngüt çuxuru, Küngüt yarğanı və sair oroqrafik obyekt adları qeydə alınıb.

Küngüt dağ adının mənşəyini tədqiq edən Nadir Məmmədov qeyd edir ki, adın mənşəyi və mənası haqqında yerli sakinlər müxtəlif rəvayət və mülahizələr söyləyirlər. Rəvayətlərin birində deyilir ki, dağın yaxınlığında yerləşən sakinlər vaxtilə saxsı qablar, bulaq sularını digər ərazilərə aparmaq məqsədilə saxsı borular düzəldirmişlər. Kənd sakinlərinin bu peşə və sənətinə görə kəndə və onun yaxınlığında yerləşən dağa Küngüt deyilib. Küngüt qədim türk dillərində işlənən "küng" sözündən olub, "saxsı qab", "boru düzəldən" mənasındadır.

"Lakin toponimik araşdırmalar yerli xalqın söylədiyi bu mülahizəni rədd edir", – deyən Nadir Məmmədov fikrini belə tamamlayır: "Tarixi mənbələri izlədikdə məlum olur ki, monqol işğallarında iştirak edən türkdilli tayfalardan birinin adı kinqit olmuşdur. Şəki rayonundakı Küngüt kəndinin adı da kinqit tayfasının adındandır. Deməli, tədqiq etdiyimiz Küngüt dağı və dağın yaxınlığında yerləşən oroqrafik obyekt adları da bu tayfanın adını daşıyır. Oroqrafik obyekt adlarının "Küngüt" yazılış variantı kinqit etnoniminin fonetik şəklidir".

Küngüt XVIII əsrdə monqolların tərkibində Qabaq Asiyaya gəlmiş "kinqit" tayfa adının yerli tələffüz formasıdır. Rəşidəddin monqol tayfaları hesab etdiyi suqait, uryat, tanğıt, curyat, elçiyin, sunit, qurqan, tatar, saray və sair türk tayfaları ilə yanaşı, kinqit tayfasının da adını çəkmişdir. Keçmişdə uyğurlara məxsus Küngüt şəhərinin, XIX əsrdə Cavad qəzasında mövcud olmuş Küngüt kəndinin adları da, şübhəsiz ki, bu etnonimlə əlaqədardır.

Müxtəlif monqol və monqolların tərkibində Azərbaycana gələn türk tayfalarının adları ilə bağlı yaranan toponimləri tədqiq edən Ağamusa Axundov Azərbaycan toponimiyasında mövcud olan monqol arealını kiçik areal hesab edir. Məlum olduğu üzrə, XIII əsr boyu Azərbaycana çoxlu monqol hücumları olmuşdur. Monqollar Cəbə və Subutayın başçılığı ilə 1220-ci ildə Azərbaycana gəlmiş və XIV əsrin ortalarına qədər burada hökmranlıq etmişlər. Zunud, Küngüt, Corat monqolların yürüşündə iştirak etmiş tayfalardır. Onlar Azərbaycan toponimiyasında məhdud dairədə də olsa, işlənməkdədir.

Ağamusa Axundov Şərur rayonunun Cəlilkənd inzibati ərazi bölgüsünə daxil olan Günnüt kəndinin adını "Küngüt" yer adının başqa deyiliş forması hesab edir və beləliklə, oykonimin "kinqit" etnonimindən yaranması fikrinə şərik çıxır.

Firudin Rzayev də Günnüt kənd adını etnooykonim kimi qəbul edir. Lakin o, Günnütü kəngərlərlə əlaqələndirir: "Kanq komponenti və *-ut* cəmlik şəkilçisindən formalaşan oykonim "kəngər" tayfa adının "kanq" komponenti ilə eynidir... "Kanqlar", yəni "kəngərlər" mənasını özündə qorumaqdadır".

Rəşidəddinə əsaslanan Qiyasəddin Qeybullayev də monqol və türk tayfaları arasında kinqitin adını çəkir.

Əbülqazi Bahadır xan "Şəcərə-i Terakime" əsərində türk qəbilə-boy adları sırasında "Üngüt" adının da qeyd edir. Vaxtilə şəhərin qapılarını qorumaq Hıtay padşahları tərəfindən bir neçə türkə həvalə olunur. Bu iş nəsildən-nəslə davam edir. Onlara "üngüt" deyirlər. Üngüt "qala qapıçısı" anlamına gəlir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə Dərələyəz mahalına aid Kərinüd kəndinin "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə "Künküd" şəklində yazılışına aid qeyd vardır.

Bütün bu deyilənləri ümumiləşdirsək, belə fikrə gəlmək olar ki, "Küngüt" adlı oronim və oykonimlər, yəni dağ və yaşayış yeri adları, şübhəsiz ki, qeyd olunan "kinqit" etnoniminin adından yaranmışdır.

Lakin "Günnüt" oykoniminin izahına fərqli yanaşmaq olar. Bəzi qaynaqlarda "gün" adlı türk etnonimi haqqında məlumatlara rast gəlinir. Qiyasəddin Qeybullayev "Toponomiya Azerbaydjana" ("Azərbaycan toponimiyası") kitabında yazır ki, "gün" türk etnonimidir. Gün tayfası Mərkəzi Asiyada yaşamış, Qərbə hərəkət edərək 1030-1049-cu illərdə "qayı" tayfası ilə birlikdə oğuzlarla birləşmişdir.

Əgər biz əksər elmi mənbələrdə qeyd olunduğu kimi "ut"u cəm şəkilçisi olaraq qəbul etsək, onda "Günnüt" sözü "Günlər" anlamını, yəni "gün etnoniminə mənsub olanlar" mənasını verir. "Gün" tayfasına mənsub olan insanların məskunlaşdığı yer, sadəcə, "Günnüt" – yəni "Günlər" adlandırılmışdır.

Günnüt sözündəki cəmlik bildirən *-ut* şəkilçisi etnonim adının oykonimə çevrilməsində toponformant funksiyasını yerinə yetirmişdir.

Bütün bunlar 26 il erməni işğalında qalan və nəhayət, may ayında qüdrətli ordumuzun şanlı zəfər tarixi yazaraq düşməndən azad etdiyi Günnüt yaşayış məskəninin əzəli türk – Azərbaycan torpağı olması kimi danılmaz həqiqəti bir daha təsdiq edir. Heç şübhəsiz ki, inkişaf etmiş müstəqil dövlətimiz, ölkəmizin ərazi bütövlüyünü qorumağa qadir ordumuz sayəsində Günnüt kəndi də əsl sahiblərinin ixtiyarında olmaqla gülüstana çevriləcək.

**Akif İMANLI**
***Naxçıvan Müəllimlər İnstitutunun professoru***

## *"İslam dini və ailə dəyərləri"* mövzusunda konfrans keçirilib



***"Naxçıvan" Universitetində keçirilən konfrans Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, AMEA Naxçıvan Bölməsi, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və "Naxçıvan" Universiteti tərəfindən təşkil edilib.***

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri çərçivəsində və Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyanın 2018-ci il üçün iş planının icrası ilə əlaqədar olaraq keçirilən konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "İslam dini və ailə dəyərləri: dövlət siyasətinin tərkibi kontekstində" mövzusunda çıxış edib. Bildirib ki, ailə dəyərlərinə və cəmiyyətin dini-mənəvi ehtiyaclarına son dərəcə qayğı ilə yanaşan ümummilli lider ölkəmizə rəhbərliyinin hər iki dövründə ailə siyasətinin formalaşdırılmasına xüsusilə diqqət yetirib, həmin sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirib, möhkəm qanunvericilik bazasının yaradılmasına böyük töhfə verib. Reallaşdırılan məqsədyönlü siyasət nəticəsində ölkəmizdə milli dəyərlərimizə əsaslanan ailə modeli qorunub saxlanılıb. Ulu öndərin əsasını qoyduğu siyasi xətt bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Vurğulanıb ki, qədim diyarımızda da ailə siyasəti uğurla həyata keçirilir. Belə ki, ailə institutunun cəmiyyətdəki mövqeyinin daha da möhkəmləndirilməsi, ailələrin rifah halının yaxşılaşdırılması, möhkəm təməlli ailə ənənələrimizin qorunub saxlanılması ilə bağlı konkret işlər görülür. Bütün bunların təməlində ailə dəyərlərimizə bağlılıq dayanır.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "İslam dinində qadının statusu və uşaqların tərbiyəsində rolu" mövzusunda çıxış edərək bildirib ki, bütün şəxsi, mənəvi, əxlaqi keyfiyyətlər öncə ailədə formalaşır. Ailədə kişinin və qadının özünəməxsus rollarını və funksiyasını qeyd edən akademik, eyni zamanda gələcək nəslin tərbiyəsinin və hansı dini daşımasının daha çox qadından asılı olduğunu bildirib. İslam dinində qadının statusundan və uşaqların tərbiyəsində onun rolundan ətraflı bəhs edib.

"İslam dinində ailə dəyərləri: ailəyə baxış və ailənin təşəkkül tapması" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev diqqətə çatdırıb ki, dinimizdə ailə institutuna böyük əhəmiyyət verilir. İslamda evlilik kişi ilə qadının başqalarının təzyiqi olmadan öz iradələri ilə reallaşdırdıqları əqd sayılır. Qarşılıqlı razılıq əsasında qurulan ailə daha möhkəm olur.

Daha sonra isə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "İslam dinində valideynə hörmət məsələsi", bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədovun "İslam düşüncəsinə görə Azərbaycan atalar sözlərində ailə və onun günümüzdəki ailədə təzahürləri", "Naxçıvan" Universitetinin dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Səbuhi İbrahimovun "Naxçıvanın görkəmli İslam alimləri", həmin universitetin müəllimi Bəhruz Gülmalıyevin "İslam dinində ailə məsələsi: gənclərin üzərinə düşən vəzifələr" mövzularında çıxışları dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Xalq artistinin 80 illik yubileyi qeyd edilib

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Tofiq Mövləvinin 80 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, muxtar respublikamızda tanınmış sənət adamlarına yüksək diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sənət adamlarına göstərdiyi diqqət və qayğı bunun bariz nümunəsidir. Belə incəsənət xadimlərindən biri də Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Tofiq Mövləvidir.

Vurğulanıb ki, yarım əsrdən artıq səhnədə 100-dən çox müxtəlif xarakterli obrazlar yaratmış Tofiq Mövləvi böyük tamaşaçı sevgisi qazanmışdır. Aktyor 1938-ci ilin iyulun 1-də qüdrətli sənətkar Səməd Mövləvinin ailəsində dünyaya göz açıb. Böyüdüyü mühit onu səhnə sənətinə daha qırılmaz tellərlə bağlayıb.

Bildirilib ki, Tofiq Mövləvi hələ Naxçıvan şəhər 1 nömrəli orta məktəbdə təhsil aldığı illərdə Naxçıvan teatrında ilk kiçik rollarını oynamışdır. 1955-ci ildə orta məktəbi bitirdikdən sonra o, görkəmli ədib Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində rol alır. O zaman atası mərhum Səməd Mövləvi də bu tamaşada Şeyx Kəbir rolunda səhnəyə çıxır. Bu, gələcək aktyor üçün unudulmaz anlar olmaqla bərabər, həm də sənət imtahanı idi.

Nazir bildirib ki, görkəmli sənətkarın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının, 1987-ci ildə isə Azərbaycan Respublikasının "Əməkdar artisti" fəxri adlarına layiq görülüb. Naxçıvan teatrının 125 illiyinin qeyd edildiyi 2008-ci ildə isə Tofiq Mövləvi "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adı ilə təltif edilib. Tofiq Mövləvi 2005-ci ildən Prezident təqaüdçüsüdür.

Nazir yubilyarı təbrik edib və ona hədiyyə təqdim edib.

Tədbirdə Xalq artistinin sənət dostları, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Xalq artistləri Kamran Quliyev, Həsən Ağasoy, Yasəmən Ramazanova, Rövşən Hüseynov, Məhəmmədtağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Şirzad Abutalıbov, Xalq rəssamı Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının Əməkdar artistləri Yusif Allahverdiyev, Tural Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elxan Şeyxov, sənətkarın qızı İlahə Mövləvi, nəvəsi Röya Ələkbərova çıxış edərək yubilyar haqqında ürək sözlərini bildiriblər.

Sonda Xalq artisti Tofiq Mövləvi çıxış edərək yaradıcılığına yüksək qiymət verildiyinə, ona göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib və bundan sonra da teatr sənətimizin inkişafı üçün çalışacağını bildirib.

**Əli RZAYEV**

## Endokrinologiyanın aktual problemlərinə aid elmi-praktik konfrans



Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən konfransı Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açıb. O, səhiyyə sisteminin inkişafına dövlət qayğısının get-gedə artırılmasının, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsinin, infrastrukturun yenidən qurulmasının digər sahələr kimi, endokrinologiya sistemində də mühüm irəliləyişlərə şərait yaratdığını bildirib.

Sonra Bakı şəhərində tibbi fəaliyyət göstərən "Bakı" klinikasının endokrinoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Rauf Cabbarovun "Qalxanabənzər vəzinin autoimmun xəstəlikləri", Bakı şəhərindəki Mərkəzi Dənizçilər Xəstəxanası Endokrinoloji xəstəliklər şöbəsinin müdiri Nazim Rüstəmovun "Prediabet xəstələrinin idarə olunması", Naxçıvan Muxtar Respublika Xəstəxanası Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyevanın "Naxçıvan Muxtar Respublikasında şəkərli diabet xəstəliyinin epidemiologiyası" mövzularında məruzələri dinlənilib.

Mütəxəssislər şəkərli diabetin tipləri, risk faktorları, diaqnostikası, dərman vasitələrinin seçilməsi və müalicə işinin təşkilində müasir üsullar barədə məlumat veriblər. Bildirilib ki, ciddi təhlükə törədən, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi çoxlu vəsait tələb edən bu xroniki xəstəliyin yüksək artımı, eyni zamanda tibbi, sosial, iqtisadi, psixoloji və digər problemlər də ortaya çıxarır.

Son illər muxtar respublikamızda da görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Hazırda muxtar respublikada şəkərli diabet xəstələrinə şəkərölçmə cihazı, test çubuqları və dərmanlar pulsuz verilir.

Endokrinologiya şöbəsi tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə artıq beş ildən çoxdur ki, diabet məktəblərinin təlim, məşğələ və treninqləri təşkil olunur.

Konfransda müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Saat meydanında şənbə konserti olub



*İyunun 30-da Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"lə bağlı Naxçıvan şəhərinin Saat meydanında bu ilin ilk şənbə konserti olub.*

Aparıcı bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Məmmədov olan estrada orkestri haqqında geniş məlumat verib.

Bildirilib ki, yay mövsümü ərzində əhalinin istirahətinin səmərəli təşkili, asudə vaxtının mənalı keçirilməsi məqsədilə hər həftə şənbə konsertləri təşkil olunacaqdır.

Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Azər Cəfərlinin, Elçin Nağıyevin ifalarında Azərbaycan bəstəkarlarının estrada mahnıları səsləndirilib. Fikrət Əmirov, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Polad Bülbüloğlu, Zakir Bağırov, Oqtay Kazımov, Elza İbrahimova, Nəriman Əzimov, Telman Hacıyev və başqalarının mahnıları alqışlarla qarşılanıb. Orkestrin gənc solistləri Samir İsmayılov, İlkin Abdullayev, Nərmin Hüseynova, Rahim Əsgərzadə Azərbaycan bəstəkarlarının şən və lirik mahnılarını ifa ediblər.

Konsertdə dünya musiqisinin böyük sənətkarlarının marş, vals, caz, tanqo, rəqs musiqi janrlarında bəstələdikləri melodiyalar da səsləndirilib.

Bir saatdan artıq davam edən, repertuar zənginliyi ilə seçilən konsert proqramı şəhər sakinləri və qonaqlara xoş ovqat bəxş edib.

Konsertdə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Məmmədov və Elvin Əliyarov dirijorluq etmişlər.

**Əli RZAYEV**

## Gömrük orqanları tərəfindən saxlanılmış mallar "N" hərbi hissəyə təhvil verilib

Gömrük orqanları tərəfindən daxili bazarın qorunması və gömrük qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı mübarizə tədbirləri davam etdirilir. Ayrı-ayrı vətəndaşlar tərəfindən müvafiq müşayiət sənədləri olmadan gətirilən və ya daxili bazarın qorunması məqsədilə saxlanılan, həmçinin müvəqqəti saxlanc müddəti bitən mallar vaxtaşırı olaraq bir sıra qapalı müəssisələrə, o cümlədən hərbi hissələrə təhvil verilir.

Bu tədbirlərin davamı olaraq gömrük sərhədburaxılış məntəqələrində saxlanılmış 4 ədəd paltaryuyan, 3 ədəd qabyuyan maşın, 3 ədəd televizor, 3 ədəd tikiş maşını, 2 ədəd qaz sobası, 1 ədəd stolüstü qaz plitəsi, 1 ədəd mikrodalğalı soba və 2485 kiloqram alçı kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə aktlaşdırılaraq Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsinə təhvil verilib.

Mayor Natiq Mikayılov göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib, ordumuzun təchizatının ən yüksək səviyyədə olduğunu, bu cür tədbirlərin şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratdığını vurğulayıb.

**Rahil TAHİRLİ**

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru***

## Naxçıvan Muxtar Respublikası üzrə 2 iyul 2018-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4348 | 403 | 1278 | 31,7 |
| 2. | Babək rayonu | 10526 | 4366 | 13274 | 30,4 |
| 3. | Ordubad rayonu | 1678 | 1121 | 3197 | 28,5 |
| 4. | Culfa rayonu | 6116 | 2849 | 8507 | 29,9 |
| 5. | Kəngərli rayonu | 4706 | 1797 | 5258 | 29,3 |
| 6. | Şahbuz rayonu | 1615 | 30 | 82 | 27,3 |
| 7. | Sədərək rayonu | 2466 | 637 | 1967 | 30,9 |
| 8. | Naxçıvan şəhəri | 1028 | 282 | 782 | 27,7 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **32483** | **11485** | **34345** | **29,9** |









## Naxçıvan şəhərində çimərlik mövsümü başlayıb

***Naxçıvan Muxtar Respublikasında insanların sağlamlığının qorunması və istirahətinin səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhər çimərliyinin yaradılması bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi dəyərləndirilir. 2014-cü ilin iyul ayında Naxçıvan şəhərində çimərliyin fəaliyyətə başlaması insan amilinə verilən qiymətin parlaq ifadəsidir.***

İyulun 1-də Naxçıvan şəhər çimərliyində növbəti mövsümün başlanması münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün sahələrdə insanların rahatlığının təmin edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Çimərlik istirahət zonasında da su və digər idman növləri üzrə yarışların, eləcə də gənclərin iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Həmçinin çimərlikdə istirahət edənlərin istifadəsinə skuter, pedallı qayıq verilib, burada futbol və voleybol meydançaları fəaliyyət göstərir. Bu da isti yay günlərində sakinlərin və şəhərə gələn qonaqların istirahətinin səmərəli təşkilinə imkan verəcəkdir.

Sonra Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov yeni mövsümdə Naxçıvan şəhər çimərliyində həyata keçirilən tədbirlər barədə məlumat verib, burada göstəriləcək təhlükəsizlik xidmətlərindən danışıb.

Qeyd edək ki, yeni mövsümə başlayan çimərlikdə yüksək səviyyəli istirahət və xidmət üçün 20 ədəd çətir, 4 ədəd duş kabinəsi quraşdırılıb, 100 yerlik paltarsaxlama və 4 ədəd soyunub-geyinmə yerləri hazırlanıb, restoran və digər xidmət sahələri də fəaliyyət göstərir. Burada təhlükəsizlik tədbirləri də diqqətdə saxlanılır, müşahidə qülləsi yaradılıb, ərazidə xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulub. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 nəfərdən ibarət xilasetmə qrupu ərazidə xidmət aparacaq.

İstirahət zonasının ümumi sahəsi 10 min 260 kvadratmetrdir. Burada böyüklər və uşaqlar üçün nəzərdə tutulmuş iki çimərlik var. Uşaqlar üçün çimərliyin uzunluğu 22, eni 38 metr, dərinliyi isə 70-120 santimetrdir. Böyüklər üçün çimərliyin uzunluğu 248, eni 38, dərinliyi isə 2-4 metrdir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulub.

Onu da deyək ki, çimərlik hər gün axşam saat 20⁰⁰-dək açıq olacaq. Naxçıvan şəhərindən çimərliyə və əks-istiqamətə avtobus xidməti də fəaliyyət göstərəcək.

## Gənclər üçün *"Yay məktəbi"* təşkil edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Təhsil, Gənclər və İdman, Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının iştirakı ilə Ağbulaq İstirahət Mərkəzində gənclərin "Yay məktəbi" təşkil olunub.

"Yay məktəbi"nin iyunun 23-dən sentyabrın 12-dək hər qrup üzrə 3 günlük olmaqla keçirilməsi nəzərdə tutulur. Hər qrup tələbə, şagird, sağlamlıq imkanları məhdud uşaq, aztəminatlı ailələrin uşaqları və ya idmançı olmaqla, 45 gənc, 1 həkim və 4 nəzarətçi-müəllimdən ibarət olacaq.

Artıq Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri "Yay məktəbi"ndə iştirak ediblər. Belə ki, 23-26 iyun tarixlərdə şagirdlərdən ibarət bir qrup, 28 iyun-1 iyul tarixlərdə isə digər qrup Ağbulaq İstirahət Mərkəzində olublar.

Əvvəlcə onlar istirahət mərkəzi ilə tanış olub, uşaqlar üçün ayrılmış otaqlarda yerləşdiriliblər. Üç gün ərzində müxtəlif idman oyunları keçirilib, vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib. Həmçinin onların Ağbulaq kəndi ərazisinə gəzintisi də təşkil edilib.

Növbəti "Yay məktəbi"ndə iştirak etmək üçün bu gün sağlamlıq imkanları məhdud uşaqlar Ağbulaq İstirahət Mərkəzinə yollanacaqlar.

**Ceyhun MƏMMƏDOV**

### Tətil günlərində işləmək istəyən tələbələrin nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rayon (şəhər) məşğulluq mərkəzləri tətil günlərində işləmək arzusunda olan tələbələrin xüsusi peşə hazırlığı tələb etməyən mövsümi və digər müvəqqəti xarakterli işlərə göndərilməsini təmin edir.

Tətil günlərində işləmək arzusunda olan tələbələr yaşadıqları ərazi üzrə Məşğulluq Mərkəzinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-42-12***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 475